# ATU beynəlxalq konfrans keçirib





Azərbaycan Texnologiya Universiteti "Urbanizasiya və sənayeləşmə şəraitində biomüxtəlifliyin qorunması" adlı beynəlxalq konfrans keçirib. Göygölün yaranmasının 877 illiyinə həsr olunan konfrans elə bu nadir təbiət incisinin qoynunda - Göygöldə baş tutub. Azərbaycan Texnologiya Universiteti və İstanbul Texniki Univesitetinin birgə təşəbbüsü ilə reallaşan beynəlxalq konfransın təşkilatçıları arasında Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyəti də var. Respublikamızın nüfuzlu universitetlərinin rəsmiləri və tanınmış alimlərinin iştirakı ilə keçirilən konfransda 10 xarici ölkədən 30-dan artıq elm xadimi də iştirak edib.

Konfransı ATU-nun rektoru, professor Akif Süleymanov giriş sözü ilə açaraq müasir davamlı inkişaf konsepsiyalarında təbiətin mühafizəsi və ekoloji problemlərin həll edilməsinin ən mühüm amillərindən biri kimi daim diqqət mərkəzində saxlanıldığını qeyd edib. Bildirilib ki, ətraf mühitin vəziyyətini və davamlılığını qiymətləndirən ən obyektiv amillərdən biri isə biomüxtəlifliyin qorunub saxlanmasıdır. Ancaq qloballaşma prosesləri, xüsusilə də urbanizasiya və sənayeləşmə şəraitində biomüxtəlifliyin qorunub saxlanması çətinləşdiyindən bu sahədə beynəlxalq əməkdaşlığın zəruriliyi getdikcə daha yaxşı anlaşılır. Rektor Azərbaycanın dünyanın ən zəngin biomüxtəlifliyi olan ölkələrindən biri olduğunu, buna görə də biomüxtəlifliyin antropogen və texnogen amillərdən, eləcə də digər təsirlərdən qorunmasının həm regional, həm də qlobal əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Bəhruz Məmmədov qeyd edib ki, təbiət ərazilərinin qorunmasının ən əsas və geniş yayılmış formalarından biri milli parkların yaradılmasıdır. Bu baxımdan Azərbaycanda kifayət qədər təcrübə toplanıb, ölkədə xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin yaradılması bu ərazidə biomüxtəlifliyin qorunması üçün olduqca böyük əhəmiyyətə malikdir. 2008-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Göygöl Milli Parkının yaradılması da ölkəmizdə təbii zənginliklərin qorunmasına verilən əhəmiyyəti bir daha sübut edir.

Sonra konfrans iştirakçılarına "IDEA" İctimai Birliyinin "Azərbaycanın 9 möcüzəsi" adlı layihəsi çərçivəsində çəkilmiş "Göygöl Milli Parkı" sənədli filmi nümayiş etdirilib.

İstanbul Universitetinin rektoru Mahmut Ak, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, eləcə də xarici ölkələrdən gəlmiş bir sıra elm xadimləri də çıxışlarında biomüxtəliflik və ekoloji sabitliyin qorunmasının əhəmiyyətindən danışıb, bu sahədə müntəzəm əməkdaşlığın zəruriliyini diqqətə çatdırıblar.

Plenar iclasın yekununda ATU ilə ADNSU arasında əməkdaşlıq müqaviləsi imzalanıb. ATU-nun rektoru Akif Süleymanov və ADNSU-nun rektoru Mustafa Babanlı tərəfindən imzalanan müqavilə elm və təhsil sahəsində əlaqələrin genişləndirilməsi, tələbə və müəllim mübadiləsi, birgə təhsil proqramlarının icrasını nəzərdə tutur.

İstanbul Universitetinin rektoru Mahmut Ak ötən il İstanbul şəhərində ATU ilə rəhbərlik etdiyi universitet arasında əməkdaşlıq memorandumunun imzalandığını söyləyərək bu əlaqələrin inkişaf edəcəyinə ümidvar olduğunu deyib.

Konfrans öz işini Azərbaycan Texnologiya Universitetində mövzu ətrafında çıxışlar, müzakirələr və məruzələrlə davam etdirib.

Sonda beynəlxalq konfransın adından qətnamə qəbul olunub. Qətnamə biomüxtəlifliyin qorunması sahəsində Azərbaycan təcrübəsinin beynəlxalq aləmdə öyrənilməsini, bu sahədə kompleks elmi-tədqiqat işlərinin aparılmasında əməkdaşlığın təşkilini, ekoloji təhlükəsiz texnika və texnologiyaların tətbiqinin genişləndirilməsini, əhalinin ekoloji maariflənməsi və ekoloji mədəniyyətin yüksəldilməsi istiqamətində təbliğat işlərinin gücləndirilməsini və sair məsələləri nəzərdə tutur.

**Mətbuat xidməti**